# Avropa İnsan Hüquqları Məhkəməsi:

# Suallar və Cavablar

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

**Məhkəmənin Katibliyi**

Bu sual və cavablar Məhkəmənin Katibliyi tərəfindən hazırlanmışdır. Bu sənəd Məhkəmənin üzərinə heç bir öhdəlik qoymur. Sənəd Məhkəmənin işi barədə ümumi məlumat verir. Daha ətraflı məlumat üçün Məhkəmənin internet saytında (www.echr.coe.int) olan sənədlərə, xüsusən Məhkəmə Qaydalarına istinad edə bilərsiniz.

AZE

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSI NƏDIR?

Avropa İnsan Hüquqları Məhkəməsi Fransanın Strasburq şəhərində yerləşən beynəlxalq məhkəmədir. O, Avropa Şurasına üzv olan, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş dövlətlərin sayı qədər hakimlərdən ibarətdir. Hazırda məhkəmə hakimlərinin sayı 47[1] nəfərə çatır. Məhkəmə hakimləri müstəqil hakimlər kimi fəaliyyət göstərirlər və heç bir dövləti təmsil etmirlər. Şikayət ərizələrinin baxılmasında Məhkəməyə Katiblik yardım edir. Katibliyin əməkdaşları əsasən Avropa Şurasına üzv olan bütün dövlətlərdən gələn hüquqşünaslardan (onları hüquq işləri üzrə katiblər də adlandırırlar) ibarətdir. Katiblikdə işləyən hüquqşünaslar vətəndaşı olduqları dövlət qarşısında heç bir öhdəlik daşımırlar və tam müstəqildirlər. Onlar məhkəmədə nə şikayətçiləri, nə də vətəndaşı olduqları ölkələrin hökumətlərini təmsil etmirlər.

## AVROPA İNSAN HÜQUQLARI KONVENSIYASI NƏ DEMƏKDIR?

Avropa İnsan Hüquqları Konvensiyası yalnız Avropa Şurasına üzv olan dövlətlər tərəfindən imzalanan beynəlxalq müqavilədir. Məhkəməni təsis edən və onun fəaliyyətini tənzimləyən Konvensiya üzv dövlətlər tərəfindən hörmət edilməli hüquqların və onlarla bağlı zəmanətlərin siyahısını əks etdirir.

[1] Avropa Şurasına üzv dövlətlərinin heç də hər biri Konvensiyaya dair bütün Protokolları (əlavə hüquqlarla bağlı sənədləri) ratifikasiya etməyib. Bu məsələ ilə bağlı ətraflı məlumatı internet saytımızda tapa bilərsiniz.

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSI NƏ ILƏ MƏŞĞUL OLUR?

Avropa İnsan Hüquqları Məhkəməsi İnsan Hüquqları Konvensiyasını tətbiq edir. Məhkəmənin vəzifəsi Avropa Şurasına üzv olan dövlətlərin Konvensiyada əks olunan hüquqlara və onlarla bağlı zəmanətlərə hörmət etməsini təmin etməkdir. Bu iş fərdi şəxslər, bəzən isə dövlətlər tərəfindən təqdim edilən şikayətlərə (onlara "şikayət ərizəsi" də deyilir) baxılması yolu ilə həyata keçirilir. Əgər Avropa Şurasına üzv olan dövlətin qeyd olunan hüquqlar və onlarla bağlı zəmanətlərdən birini və yaxud bir neçəsini pozduğu müəyyən edilərsə, bu halda Məhkəmə qətnamə çıxarır. Qətnamələrin icrası məcburidir: Konvensiyanı pozan müvafiq dövlətlər onlara əməl etməlidirlər.

## MƏN AVROPA İNSAN HÜQUQLARI MƏHIKƏMƏSINƏ HANSI HALLARDA MÜRACIƏT EDƏ BILƏRƏM?

Siz şəxsən və bilavasitə Konvensiya və ya onun Protokolları ilə təmin olunan hüquqlarınızın və onlarla bağlı zəmanətlərin pozuntusunun "qurbanı" olduğunuzu iddia edirsinizsə, Məhkəməyə müraciət edə bilərsiniz. Bu hüquq pozuntuları Konvensiyaya qoşulan dövlətlərdən biri tərəfindən törədilmiş olmalıdır.

### Konvensiya və onun Protokolları hansı hüquqları müdafiə edir?

Konvensiya xüsusilə aşağıdakı hüquqları müdafiə edir:
- Yaşamaq hüququ;

- Mülki və cinayət işlərində ədalətli mühakimə olunmaq hüququ;
- Şəxsi və ailə həyatına hörmət hüququ;
- Sərbəst fikir ifadə etmək azadlığı;
- Fikir, vicdan və din azadlığı;
- Səmərəli hüquq müdafiə vasitəsiləri hüququ;
- Mülkiyyət hüquqlarına hörmət olunması; və
- Seçkilərdə səs vermək və seçilmək hüququ.

### Konvensiya və onun Protokolları nəyi qadağan edir?

Konvensiya xüsusilə aşağıdakıları qadağan edir:

- İşgəncə və qeyri-insani və ya ləyaqəti alçadan rəftar və ya cəzanı;
- Əsassız və qanunsuz həbsi;
- Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların istifadəsində ayrı-seçkiliyi;
- Dövlətin öz vətəndaşlarını ərazisindən çıxarmasını və ya onlara həmin dövlətin ərazisinə daxil olmağa qadağa qoymasını;
- Ölüm cəzasının tətbiq edilməsini; və
- Əcnəbi vətəndaşların ölkədən kollektiv şəkildə çıxarılmasını.

## ƏRİZƏ İLƏ MƏHKƏMƏYƏ MÜRACİƏT ETMƏK ÜÇÜN MƏN HANSI ŞƏRTLƏRİ YERİNƏ YETİRMƏLİYƏM?

### Şəxsən mənə aid olan şərtlər hansılardır?

- Siz Konvensiyaya qoşulan dövlətlərin vətəndaşı olmaya bilərsiniz, lakin Sizin şikayətinizə səbəb olan qanun pozuntusu həmin dövlətlərdən birinin "yurisdiksiyası" çərçivəsində, yəni onun ərazisi daxilində baş verməlidir.
- Məhkəmə istənilən fiziki və ya hüquqi şəxsdən - şirkət və ya assosiasiyalardan şikayətlər qəbul edə bilər.
- Siz sübuta yetirməyə çalışdığınız qanun pozuntusunun şəxsən və bilavasitə qurbanı olmalısınız. Siz hər hansı bir qanun və ya hər hansı bir tədbir ilə bağlı, onların ümumiyyətlə ədalətsiz olduğunu iddia edərək, ümumi şikayət edə bilməzsiniz; eyni zamanda siz başqa insanların adından şikayət edə bilməzsiniz (həmin insanların şəxsiyyəti aydın şəkildə göstərilirsə və siz onların rəsmi nümayəndəsi sayılırsınızsa, bu halda onların adından müraciət edə bilərsiniz).

### Məhkəməyə müraciət etməmişdən əvvəl milli məhkəmələrdə yerinə yetirilməsi vacib sayılan tələblər varmı?

- **Var. Siz şikayət etdiyiniz məsələ ilə bağlı müvafiq dövlətdə həmin pozuntunu aradan qaldıra bilən bütün hüquq müdafiə vasitələrindən istifadə etməlisiniz** (adətən bu aşağıdakı mənanı daşıyır: siz ilkin instansiya sayılan hər hansı müvafiq məhkəməyə müraciət etməlisiniz, daha sonra müvafiq qaydada apellyasiya məhkəməsinə və cavabdeh dövlətdə mövcud ola bilən digər yuxarı instansiya məhkəməsinə, belə ki, ali məhkəmə və ya konstitusiya məhkəməsinə müraciət etməlisiniz).
- Daxili hüquq müdafiə vasitələrindən sadəcə istifadə etmək kifayət deyildir. Bu instansiyalara müraciət edən zaman siz xüsusilə öz şikayətinizin mahiyyətini irəli sürməlisiniz, yəni Konvensiyada əks olunan hüququn pozuntusunu faktlarla açıqlamalısınız.
- Ölkə daxilində son qərar çıxarıldıqdan sonra (adətən bu son instansiya məhkəməsinin qərarı hesab olunur) siz həmin qərarın çıxarıldığı tarixdən etibarən **altı ay** ərzində Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət ərizəsi ilə müraciət etməlisiniz. Bu müddət

bitdikdən sonra sizin müraciətiniz Məhkəmə tərəfindən qəbul edilə **bilməz**.

## Mən kimə qarşı şikayət edə bilərəm?

- Sizin fikrinizcə (bilavasitə Sizə təsiri olan bir və ya bir neçə hərəkət və ya hərəkətsizlik nəticəsində Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarını pozan) Konvensiyanı imzalamış bir və ya bir neçə dövlətə qarşı.
- Şikayət etdiyiniz hərəkət və ya hərəkətsizlik həmin dövlətin/dövlətlərin səlahiyyətli orqanları (məsələn, məhkəmə və ya inzibati orqanlar) tərəfindən törədilməlidir.
- Məhkəmə fərdi şəxslərə və ya özəl təsisatlara, məsələn ticarət şirkətlərinə qarşı qaldırılan şikayətlərə baxa bilməz.

## Mən nədən şikayət edə bilərəm?

- Sizin şikayət ərizəniz Avropa İnsan Hüquqları Konvensiyasında əks olunan hüquqlardan biri ilə əlaqədar olmalıdır. İddia olunan pozuntular geniş məsələləri əhatə edə bilər: məsələn, məhbuslara qarşı işgəncələrin və ləyaqəti alçadan rəftarın tətbiq edilməsi; qeyri-qanuni həbs; mülki və ya cinayət işləri ilə bağlı məhkəmə proseslərində pozuntular; Konvensiyada nəzərdə tutulmuş hüququn tətbiqi zamanı ayrı-seçkiliyə yol verilməsi; valideyn hüquqları; şəxsi həyat, ailə həyatı və məktublaşma hüququna hörmətlə yanaşılması; fikirlərin sərbəst şəkildə ifadə edilməsinə və informasiyanın əldə edilməsinə və ya ötürülməsinə məhdudiyyətlərin qoyulması; yığıncaqlarda və nümayişlərdə sərbəst iştirak etmək hüququ; ölkədən zorla çıxarılma və ekstradisiya; mülkiyyətin müsadirəsi və mülkiyyətdən məhrum edilməsi.
- Siz Avropa İnsan Hüquqları Konvensiyasının pozulmasından başqa digər hər hansı bir hüquqi sənədin pozulmasından, məsələn İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin yaxud Əsas Azadlıqların Nizamnaməsinin pozulmasından şikayət edə bilməzsiniz.

# ƏGƏR MƏN ÖZÜMÜ KONVENSİYA POZUNTUSUNUN QURBANI HESAB EDİRƏMSƏ, MƏHKƏMƏYƏ NECƏ MÜRACİƏT EDƏ BİLƏRƏM?

Məhkəməyə şikayətinizin bütün təfsilatlarını aydın şəkildə açıqlayan məktub göndərərək (bu halda Siz Məhkəmədən Sizin tərəfinizdən doldurulacaq ərizə forması alacaqsınız) və ya birbaşa doldurulmuş ərizə formasını göndərərək[2]. Məktubunuz və/və ya ərizə forması aşağıdakı ünvana göndərilməlidir:

**The Registrar**
**European Court of Human Rights**
**Council of Europe**
**F-67075 Strasbourg Cedex**

- Siz Məhkəmənin rəsmi dillərindən birində (ingilis və ya fransız dilində) və yaxud Konvensiyanı ratifikasiya etmiş dövlətlərdən birinin rəsmi dilində müraciət edə bilərsiniz.
- Əgər siz şikayət ərizəsini faksla göndərirsinizsə, onun surətini daha sonra poçtla göndərməlisiniz.
- **Öz şikayətinizi şifahi şəkildə şəxsən çatdırmaq üçün Strasburqa gəlməyin.** Bu sizin şikayətinizə daha tez baxılmasına

[2] Ərizə formasının nümunəsini internet saytımızda tapa bilərsiniz.

kömək etməyəcək və sizə heç bir hüquqi məsləhət verilməyəcək.

- Katiblik sizdən şikayət ərizənizlə bağlı əlavə sənəd, məlumat və ya izahat istəyə bilər.
- Ərizə formasını alan kimi onu səliqəli və aydın şəkildə doldurub Məhkəməyə mümkün qədər tez göndərməlisiniz. Ərizə forması aşağıdakılardan ibarətdir:
  - Faktların və şikayət etdiyiniz məsələnin tam və eyni zamanda qısa təsviri;
  - Pozulduğunu güman etdiyiniz Konvensiya hüquqlarının qeyd olunması;
  - İstifadə etdiyiniz daxili hüquq müdafiə vasitələrinin siyahısı;
  - İşiniz üzrə müraciət etdiyiniz bütün səlahiyyətli dövlət orqanları tərəfindən verilən qərarların surətləri (**bu sənədlər sizə geri qaytarılmayacaq, ona görə də Məhkəməyə onların yalnız surətləri göndərilməlidir**); və
  - Ərizəçi olaraq sizin və ya sizi təmsil edən nümayəndənin imzası.
- Əgər siz öz şəxsiyyətinizi gizli saxlamaq istəyirsinizsə, bu barədə səbəbləri göstərərək Məhkəməni dərhal xəbərdar etməlisiniz. Bundan sonra sizin xahişinizin təmin edilib edilməməsini Məhkəmənin Prezidenti müəyyənləşdirəcək.
- İcraatın ilkin mərhələsində sizin hüquqşünasla təmsil olunmağınız məcburi deyildir. Əgər siz Məhkəməyə nümayəndə vasitəsilə müraciət etmək istəyirsinizsə, ərizə forması ilə birlikdə həmin nümayəndənin sizin adınızdan fəaliyyət göstərə bilməsi üçün onun adına etibarnamə də göndərməlisiniz.

## Məhkəmə icraatının əsas xüsusiyyətləri hansılardır?

- İcraat yazılı şəkildə aparılır. Məhkəmə tərəfindən qəbul ediləcək hər hansı bir qərar haqqında siz yazılı surətdə xəbərdar ediləcəksiniz. Açıq şifahi dinləmələr müstəsna hallarda təşkil olunur.
- Sizin işə baxılması üçün heç bir rüsum və ya ödəmə tələb olunmur.
- İcraatın ilkin mərhələlərində hüquqşünas tərəfindən təmsil olunmanız tələb olunmasa da, cavabdeh Hökumətə ərizəniz haqqında bildiriş verildikdən sonra sizi nümayəndə təmsil etməlidir. Halbuki, ərizələrin böyük əksəriyyəti Hökumətə bildiriş verilmədən qəbul edilməz elan oluna bilər.
- Siz yalnız öz şəxsi xərclərinizi (hüquqşünas(lar)ınızın xidmət haqqını, araşdırma və poçt xərclərini və digər oxşar xərcləri) ödəməlisiniz.
- Şikayət ərizəniz Məhkəməyə təqdim edildikdən sonra Məhkəməyə hüquqi yardım üçün müraciət edə bilərsiniz. Hüquqi yardım hər bir halda və dərhal verilmir, o, Məhkəmə icraatının yalnız sonrakı mərhələlərində verilir.

## Məhkəmə icraatının əsas mərhələləri hansılardır?

- Birinci növbədə Məhkəmə sizin ərizənizin **qəbul edilmə** məsələsinə baxır, yəni şikayət Konvensiya tərəfindən müəyyən edilmiş konkret tələblərə uyğun olmalıdır (bax səhifə 3 "Ərizə ilə məhkəməyə müraciət etmək üçün mən hansı şərtləri yerinə yetirməliyəm"). Əgər ərizəniz bu şərtlərə uyğun deyilsə, şikayət ərizənizə rədd cavabı veriləcəkdir. Əgər ərizəniz bir neçə şikayətdən ibarətdirsə, Məhkəmə onlardan birini və ya bir neçəsini qəbul edərək digərlərinə rədd cavabı verə bilər.
- **Əgər sizin ərizəniz və ya şikayətlərinizdən biri qəbul edilməz elan edilmişdirisə, Məhkəmənin bu qərarı qətidir və ona bir daha yenidən baxılmayacaqdır.**
- Əgər sizin ərizəniz və ya şikayətlərinizdən biri qəbul edilən

elan edilibsə, Məhkəmə tərəfləri (sizi və cavabdeh Dövləti) məsələni dostcasına həll etməyə sövq etdirir. Tərəflər məsələnin dostcasına həll edilməsi barədə razılığa gəlməsələr, Məhkəmə şikayətə mahiyyəti üzrə baxır və Konvensiyanın pozulub pozulmadığını müəyyənləşdirir.

### Mən nə qədər gözləməliyəm?

- Məhkəmənin iş yükünün ağırlığını nəzərə alaraq Məhkəmədə ərizənizin ilkin baxışını bir ilə qədər gözləməyə məcbur ola bilərsiniz. Məhkəmə bəzi ərizələrə, xüsusilə ərizəçilərin qaçılmaz fiziki təhlükə altında olduğunu iddia edən ərizələrə üstünlük verərək onlara təcili baxa bilər.

## NƏ ƏLDƏ EDƏCƏYİMƏ ÜMID EDƏ BİLƏRƏM?

Məhkəmə Konvensiyanın pozulduğunu müəyyən edərsə, o Sizə dəymiş zərərə görə müəyyən məbləğdə Sizə maddi kompensasiya ödənilməsini qərara ala bilər. Məhkəmə eyni zamanda cavabdeh Dövlətdən ərizənizin təqdim edilməsi ilə əlaqədar çəkdiyiniz xərclərin əvəzinin ödənilməsini tələb edə bilər. Məhkəmə Konvensiyanın pozulmadığını müəyyən edərsə, siz hər hansı bir əlavə xərc, o cümlədən cavabdeh Dövlətin çəkdiyi xərcləri ödəməli olmayacaqsınız.

### Nəzərə alın:

- Məhkəmənin ölkədaxili qərarları və ya qanunları dəyişmək və ya ləğv etmək səlahiyyəti yoxdur.
- Məhkəmə öz qətnamələrinin icrası ilə əlaqədar heç bir məsuliyyət daşımır. Qətnamə çıxarıldıqdan sonra onun icrası üzrə məsuliyyət Avropa Şurasının Nazirlər Komitəsinə[3] keçir. Nazirlər Komitəsi qətnamələrin icrasına nəzarət edir və hər hansı bir kompensasiyanın ödənilməsini təmin edir.

## AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ MƏNİM ÜÇÜN NƏ EDƏ BİLMƏZ?

- **Avropa İnsan Hüquqları Məhkəməsi daxili məhkəmələrin üzərində apellyasiya məhkəməsi kimi fəaliyyət göstərmir**: o, işlərlə bağlı təkrar dinləmələr keçirmir; milli məhkəmələr tərəfindən verilən qərarları ləğv etmək, dəyişmək və ya işə yenidən baxmaq səlahiyyətinə malik deyildir.
- Məhkəmə şikayət etdiyiniz hakimiyyət orqanı ilə bilavasitə sizin adınızdan heç bir əlaqə yaratmır, lakin müstəsna hallarda, Məhkəmə müvəqqəti müdafiə tədbiri qərarı ala bilər. Bir qayda olaraq Məhkəmə yalnız ərizəçiyə fiziki xətər yetirilməsi təhlükəsi ciddi ehtimal olunduğu halda bu tədbirə əl atır.
- Məhkəmə ərizənizin tərtib edilməsi üçün Sizə hüquqşünas tapmaqda köməklik göstərmir və ya ərizənizin tərtib edilməsi üçün hüquqşünasınıza ödədiyiniz xərcləri sizə ödəmir.
- Məhkəmə şikayətinizin ünvanlandığı Dövlətdə qüvvədə olan qanunvericilik ilə bağlı sizə heç bir hüquqi məlumat verə bilməz.

Avropa İnsan Hüquqları Məhkəməsi haqqında əlavə məlumatı aşağıdakı internet saytımızdan əldə edə bilərsiniz: www.echr.coe.int

[3] Nazirlər Komətəsi üzv dövlətlərin Xarici İşlər nazirləri və ya onların nümayəndələrindən ibarətdir.